**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# Q Ə R A R

**№ 4**

**Bakı şəhəri** **13 dekabr 2018-ci il**

Apellyasiya Şurası Dövlət Statistika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Sərraf Bəybala oğlu Əlisoyun Dövlət Statistika Komitəsi aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun aparıcı məsləhətçisi vəzifəsinin tutulması üçün 2018-ci il dekabrın 3-də keçirilən dövlət qulluğuna qəbul üçün müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Əlisoy Sərraf Bəybala oğlu Dövlət Statistika Komitəsi aparatında İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun aparıcı məsləhətçisi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2018-ci il 17 sentyabr tarixində elan edilmiş müsabiqə üzrə müsahibədə iştirak etmişdir. Müsahibə 2018-ci il dekabrın 03-də Dövlət Statistika Komitəsi aparatının İnsan resursları və hüquq şöbəsinin müdiri Arif Hüseynov, Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat şöbəsinin aparıcı məsləhətçisi Ülviyyə Bədəlova və müstəqil ekspert Absələddin Əliyevdən ibarət komissiya tərəfindən keçirilmişdir. Əlisoy Sərraf Bəybala oğluna müsahibə komissiyasının üzvlərindən A.Hüseynov 14, Ü.Bədəlova 16, A.Əliyev isə 17 bal vermiş nəticədə iştirakçı 15.7 bal toplamışdır. Müsahibə komissiyası üzvlərinin namizədin qiymətləndirilməsi zamanı verdiyi ümumi ballar arasında müsahibə nəticəsinə təsir edən fərq (3 bal) yarandığından Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1480 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət qulluğu vəzifəsinin tutulması məqsədi ilə müsahibə keçirilməsi Qaydası"nın 5.6-cı hissəsinə əsasən müsahibənin nəticəsi etibarsız hesab edilmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 21 iyun tarixli 1474 nömrəli Fərmanının 3.4.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 05.12.2018-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasında daxil olmuş şikayətlə əlaqədar müsahibə komissiyasının üzvlərinin rəyləri nəzərdən keçirilmişdir. Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Ü.Bədəlovanın rəyinə əsasən namizəd onunla keçirilən müsahibə zamanı qanunvericiliklə bağlı verilən sualların xeyli hissəsini düzgün cavablandırmış, bəzi suallara natamam cavab vermiş, bəzilərini isə cavablandıra bilməmişdir. Müstəqil ekspert A.Əliyevin rəyinə əsasən namizəd dövlət orqanı və vəzifə proqramına uyğun verilmiş suallara müəyyən istisnalarla dolğun cavablar vermişdir. Namizədin ümumi dünyagörüşü qənaətbəxş olmuşdur. Müsahibə komissiyasının digər üzvü Arif Hüseynov bildirmişdir ki, vəzifənin tutulma

şərtlərində rus və ingilis dillərini orta səviyyədə bilmək tələb olunmasına baxmayaraq namizədin xarici dil biliyi çox zəifdir. Namizəd müsahibə zamanı peşə hazırlığı ilə bağlı sualları konkret cavablandıra bilməmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Əlisoy Sərraf Bəybala oğlunun 5 dekabr 2018-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Dövlət Statistika Komitəsi aparatının İnsan resursları və hüquq şöbəsinin İnsan resurslarının idarə edilməsi sektorunun aparıcı məsləhətçi vəzifəsinin tutulması üçün 2018-ci il dekabrın 3-də keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.

2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə təqdim edilməsini təmin etsin.

3. Qərardan Azərbaycan Respublikasının Prezidenti yanında Apellyasiya Şurasına şikayət verilə bilər.

**Sədr** **Vahab Məmmədov**